# Qəbələdə «MDB-nin mədəniyyət paytaxtları-2013» dövlətlərarası proqramının təntənəli açılış mərasimi iştirakçılarının mətbuata rəyləri

*Ötən sayımızda xəbər verdiyimiz kimi «MDB-nin mədəniyyət paytaxtları-2013» dövlətlərarası proqramı çərçivəsində MDB-nin üzv dövlətlərinin humanitar sahə üzrə Əməkdaşlıq Şurasının və təşkilata üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun ötən il oktyabrın 15-dən 17-dək Aşqabadda keçirilmiş birgə iclasında qəbul edilən qərara əsasən, 2013-cü ildə Qəbələ MDB-nin mədəniyyət paytaxtı elan olunmuşdur.*

## Polad BÜLBÜLOĞLU: Qəbələnin MDB-nin mədəniyyət paytaxtı seçilməsi Azərbaycan mədəniyyətinin çox zəngin olduğunu göstərir



Qədim tarixə və gözəl təbiətə malik Qəbələnin MDB-nin mədəniyyət paytaxtı seçilməsinin Azərbaycan üçün böyük əhəmiyyəti vardır.

Bu sözləri Qəbələdə «MDB-nin mədəniyyət paytaxtları—2013» dövlətlərarası proqramının təntənəli açılış mərasimində iştirak edən Azərbaycanın Rusiyadakı səfiri, MDB-nin üzvü olan ölkələrin humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun idarə heyətinin sədri Polad Bülbüloğlu jurnalistlərə müsahibəsində demişdir.

P. Bülbüloğlu vurğulamışdır ki, bu cür tədbirlər Azərbaycan mədəniyyətinin çox zəngin olduğunu göstərir. Bu, Azərbaycan mədəniyyətinin MDB ölkələrində təbliği baxımından da çox böyük əhəmiyyət daşıyır.

Səfir demişdir: «Biz çox şadıq ki, bugünkü tədbirdə 10 ölkədən rəsmi qonaqlar, mədəniyyət işçiləri iştirak edirlər. Bu gün Azərbaycanda regionların sürətli inkişafı Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirməsini bir daha göstərir. Mən çox sevinirəm ki, paytaxtla yanaşı bölgələr də inkişaf edir. Qəbələ son vaxtlar çox gözəl və müasir bir şəhərə çevrilmişdir. Qonaqlar Qəbələ ilə tanışlıq zamanı ölkəmizin necə də sürətlə inkişaf etdiyinin şahidi olurlar. Təbii ki, bir azərbaycanlı kimi mən buna görə çox sevinirəm. MDB-nin mədəniyyət paytaxtı elan olunan Qəbələdə bu il ərzində bir neçə mədəni-humanitar tədbir keçiriləcəkdir. Bunun üçün Qəbələdə bütün lazımı şərait vardır».

**(AzərTAc).**

## Nikolay Patskeviç: Azərbaycanın uğurlarına sevinməmək mümkün deyildir



Qəbələnin MDB-nin mədəniyyət paytaxtı seçilməsi münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

Bu sözləri Qəbələdə «MDB-nin mədəniyyət paytaxtları—2013» dövlətlərarası proqramının təntənəli açılış mərasimində iştirak edən Belarusun Azərbaycandakı səfiri Nikolay Patskeviç jurnalistlərə müsahibəsində demişdir.

Qəbələnin sürətli inkişafının şahidi olduğunu söyləyən belaruslu diplomat bildirmişdir ki, regionların bu cür inkişafı, ümumilikdə, Azərbaycanın inkişafından xəbər verir.

Ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini deyən Nikolay Patskeviç, Azərbaycanda yaşadığı son 7 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasi kursu, həm də sosial siyasətin uğurlu nəticələrini yüksək qiymətləndirmişdir .

Səfir bildirmişdir ki, bu siyasətin nəticəsidir ki, indi Azərbaycanın bütün regionları sürətlə inkişaf edir. Diplomat bu yaxınlarda Azərbaycanda keçirilən Belarus Mədəniyyət Günləri iştirakçılarının Xaçmaza səfər etdiklərini və buradan çox xoş təəssüratla ayrıldıqlarını bildirmişdir.

«Azərbaycanın uğurlarına sevinməmək mümkün deyildir»,—deyən səfir xalqımızın öz zəngin mədəniyyətinin qorunmasına mühüm əhəmiyyət verdiyini demişdir.

**(AzərTAc).**

## Mirəli Dostiyev: Tacikistanda ildə ən azı dörd dəfə Azərbaycan mədəniyyətini təbliğ edən tədbirlər keçirilir



Son illər beynəlxalq əhəmiyyətli mədəni tədbirlərə ev sahibliyi edən Azərbaycanın qədim şəhəri Qəbələ beynəlxalq klassik musiqi mədəniyyəti və turizm mərkəzinə çevrilmişdir.

Bu sözləri Qəbələdə «MDB-nin mədəniyyət paytaxtları—2013» dövlətlərarası proqramının təntənəli açılış mərasimində iştirak edən Tacikistanın mədəniyyət nazirinin birinci müavini Mirəli Dostiyev demişdir.

Mirəli Dostiyev Qəbələ sakinlərini şəhərin 2013-cü il üçün MDB-nin mədəniyyət paytaxtı seçilməsi münasibətilə təbrik edərək demişdir: «Qəbələ şəhəri doğrudan da bu ada layiqdir. Şəhəri gəzərkən hər addımda inkişafın, tərəqqinin şahidi oldum».

Qonaq Azərbaycan—Tacikistan mədəni əlaqələrinin inkişafından məmnunluğunu bildirmişdir. Qeyd etmişdir ki, ölkəsində ildə ən azı 4 dəfə Azərbaycan mədəniyyətini təbliğ edən tədbirlər keçirilir. O, qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə minnətdarlığını bildirmişdir.

**(AzərTAc).**

# Ağdaş Ağsaqqallar Şurasının üzvləri Qəbələdə

Bu günlərdə Ağdaş Ağsaqqallar Şurasının üzvləri təcrübə mübadiləsi məqsədilə Qəbələdə olmuşlar. Qonaqları Qəbələ Ağsaqqallar Şurasının üzvləri Qaradeyn kəndində yeni tikilmiş ASPİ Aqro MMC-nin şərab zavodunda qarşılamışlar. Rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, Sədr müavini Əliş Ağayev, zavodun direktoru Əjdər Şəfizadə qonaqları salamlamış, sonra zavodla tanışlıq mərasimi başlanmışdır. Bildirilmişdir ki, Qəbələ vaxtilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü sayəsində üzümçülük inkişaf etdirilən rayonlardan biridir. Hazırda bu təşəbbüs yenidən müdafiə olunmuş, sahələrdə xaricdən gətirilmiş ən məhsuldar, keyfiyyətli süfrə və texniki üzüm sortları yetişdirilir. Üzümün emalı üçün burada yeni zavod tikilmişdir. Ən müasir texnalogiya ilə təchiz olunmuş zavodun açılışında cənab Prezident İlham Əliyev iştirak etmişdir.

İstehsal prosesi ilə tanışlıqdan sonra ağsaqqallar zavodda şərabçılığın inkişafı muzeyi, dequstasiya salonu ilə tanış edildilər.

Ağsaqqallar daha sonra Qəbələ Beynəlxalq Hava Limanı, yeni tikilmiş şəhər cümə məscidi, "Tufan" Dağ-Xizək Yay-Qış istirahət kompleksinin tikintisi, Meyvə Konservi Zavodu, "Beltmann" piano fabriki, Bum qəsəbəsində inşa edilən stend atıcılığı kompleksi, Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi, rayonun digər gəzməli-görməli yerləri ilə tanış edilmişlər.

Tanışlıq zamanı rayon ağsaqqallar şurasının sədri son 10-12 il ərzində Qəbələ rayonunun, o cümlədən Qəbələ şəhərinin sosial-iqtisadi inkişafı, habelə bölgədə turizmin inkişafı, 2013-cü ildə Qəbələ şəhərinin MDB ölkələrinin mədəniyyət paytaxtı seçilməsi, hər il bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, çoxlu sayda iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin durmadan artması, eyni zamanda ağsaqqallar şurasının həyata keçirdiyi tədbirlər barədə Ağdaş rayon ağsaqqallarına ətraflı məlumat vermişdir.

Ağdaş Ağsaqqallar Şurasının sədri Rafiq Nəbiyev çıxış edərək tədbirdə iştirak edən ağsaqqallar adından və şəxsən öz adından respublikamızın bu gözəl guşəsində yüksək səviyyədə və çox səmimi qarşılandıqlarına görə Qəbələ Rayon Ağsaqqallar Şurasına təşəkkürünü və minnətdarlığını bildirdi. Rafiq Nəbiyev habelə bu görüşə şərait yaradan Ağdaş və Qəbələ rayonları icra hakimiyyətinin başçıları Tofiq İbrahimova və Səbuhi Abdullayevə də ağsaqqallar adından xüsusi olaraq minnətdarlığını söylədi.

O, çıxışının sonunda Qəbələnin son illərdə bütün sahələrdəki sürətli inkişafı onları heyrətə gətirdiyini, eyni zamanda görüşdən çox-çox məmnun qaldığını qeyd etməklə yanaşı bu inkişaf bütün qəbələliləri gözəl bir gələcəyə apardığını söylədi, bu yolda hər bir qəbələliyə yeni-yeni uğurlar arzuladı.

**Nadir ATAKİŞİYEV.**

# Taxıl biçini davam edir

Bu il Qəbələnin bərəkətli torpaqlarında bol taxıl yetişib. Artıq bir neçə gündür ki, fermer təsərrüfatları və torpaq mülkiyyətçiləri böyük zəhmətlə yetişdirdikləri məhsulu itkisiz yığırlar. Taxıl yığımına 40-dan artıq kombayn və kifayət qədər digər köməkçi texnika cəlb edilib. İyulun əvvəlinə olan məlumata görə 6.400 hektar arpa sahəsi biçilmiş, 16.830 ton məhsul yığılmışdır. Hazırda buğda zəmilərinin məhsulu sürətlə toplanılır. Redaksiyaya daxil olan məlumata görə son günlərədək 8.700 hektar buğda sahəsi biçilmişdir. Hər hektarın məhsuldarlığı da nəzərdə tutulandan çoxdur. İyul ayının 8-nə olan məlumata əsasən rayon üzrə 44.290 ton arpa və buğda istehsal edilmişdir.

Taxıl istehsalında «Gilan» MMC-in, «Həsrət» kəndli fermer təsərrüfatının, Bayramkoxalı, Kürd, Zalam, Qaradeyin kəndlərinin taxılçılar rekord miqdarda taxıl tədarük etmişlər. Məsələn, «Gilan» MMC-nin və «Həsrət» fermer təsərrüfatının taxılçıları hər hektardan 30-35 sentner məhsul toplamışlar. Taxıl yığımında rayonun «Aqrolizinq» şöbəsinin mexanizatorları daha yaxşı iştirak edirlər. Onlar taxılı itkisiz toplayır, boş dayanma hallarına yol vermirlər. Hazırda kombaynçılar son hektarların məhsulunu toplamaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər. Ümumiyyətlə, bu gün bizə deməyə əsas verir ki, rayonumuzda strateji əhəmiyyətli məhsula olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verir, ilbəil məhsul istehsalı artır.

**«Qəbələ»**